**Günel Həsən qızı BAĞIROVA**
Qərbi Kaspi Universiteti, Politologiya, psixologiya və sosial iş kafedrası, magistrant
E-mail: qehremanova_7@mail.ru

# GƏNC AİLƏLƏRDƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN TƏHLİLİ

**Xülasə**

Ailə bir -birini sevən, bir - birinə hörmət və ehtiram edən iki insanın birliyindən yaranır. Ailənin bir sütunu - ərin, bir sütunu isə - arvadın çiyninə söykənir.

Ailə haqqında kiçik qrup kimi danışdıqda, onun həyatda, cəmiyyətdə, uşaqların tərbiyəsində yerinin müəyyənləşdirilməsi çox vacibdir. Uşağın bir şəxsiyyət kimi təşəkkülü və inkişafında onun böyüdüyü ailənin olduqca böyük təsiri vardır.

Qadın və kişi yeni həyatının ilk səhifələrində müxtəlif çətinliklər vardır. Maddi çətinliklər, münasibət çətinlikləri və s. Ailə həyatının ilk günlərində təzə evli cütlüyün qarşılıqlı münasibəti necə olmalıdır? Qarşılıqlı sözünə diqqət yetirək: ailə həyatı üçün münasibətlərin qarşılıqlı olması xüsusi əhəmiyyətə malikdir. Axı söhbət iki insandan, onların və ən başlıcası gələcək uşaqların taleyindən gedir.

Təqdim olunan məqalədə ailə haqqında, ailəyə təsir göstərən amillər, gənc ailələr, ailə konfliktləri, kişi-qadın münasibətləri və s. mövzular müzakirə olunmuşdur. Məqalədə qeyd olunmuş problemlərin ədəbiyyat icmalı üzrə təhlili aparılmışdır.

**Açar sözlər:** ailə, münasibət, gənc, problem, qadın, kişi, evlilik, qarşılıqlı, uşaq.

**DOI**: 10.54414/RUGM7453

## Giriş

Ailə nədir? Şablon səslənsə də, qeyd etməliyik ki, ailə kiçik dövlətdir, cəmiyyətin, dövlətin mövcudluğunun, müasir sivilizasiyanın bünövrəsidir. İstənilən ailənin əsasını nikah nəticəsində yaranmış müəyyən bir cütlük, obrazlı desək, bir kişi və bir qadın arasında özünəməxsus şəkildə yaranan ittifaq təşkil edir. Ortaq mənzil, məişət, birgə yaşayış və fəaliyyət qayğıları ailənin xarakterik xüsusiyyətlərini təşkil edir. Qeyd olunduğu kimi, ailə nikah nəticəsində təşkil olunan iki nəfərin birliyi hesab olunsa da, bu gün yalnız dini nikahla kifayətlənən və ya nikahsız yaşayan ailələr də mövcuddur. Baxmayaraq ki, bu, xarici ölkələr üçün daha xarakterik haldır, inteqrasiya nəticəsində Azərbaycanda da belə ailələrə meyl artmaqdadır.

Ailədaxili münasibətlər bütün dövrlərdə alimlərin diqqət mərkəzində olmuş, bu münasibətlər çərçivəsində mövcud olan konfliktlərin aradan qaldırılması və ailədaxili münasibətlərin düzgün tənzimlənməsi üçün çoxlu tədqiqatlar aparılmışdır. Bu təsadüfi deyildir. Belə ki, insanların öz həyat fəaliyyətində qazandıqları uğur və uğursuzluqlar, o cümlədən cəmiyyətin düzgün inkişafı, ailədaxili münasibətlərin sağlamlığından birbaşa asılıdır. Bu fikir ailə problemi ilə məşğul olan alimlər tərəfindən birmənalı qəbul edilir və riyazi terminlə desək, “aksioma” kimi qəbul edilir.

Ailə- insanların qan qohumluğuna və ya nikaha əsaslanan birliyidir ki, burada insanların məişət ortaqlığı vardır. Onlar bir-birləri ilə münasibətdə qarşılıqlı məsuliyyət daşıyırlar. Ailənin hər bir üzvünün öz xarakter xüsusiyyətləri, öz “dünyası” vardır. Onlar bir-birləri ilə bütün ömürləri boyu ünsiyyətdə olurlar. Bu ünsiyyət forması ailədaxili münasibətlər adlanır. Ailə münasibətlərinin kökünü vəhdətdə olan ər-arvad və valideyn-uşaq (uşaqlar) arasındakı münasibətlər təşkil edir.

Ailədə sağlam mühitin olması bilavasitə ailədaxili münasibətlərin necə qurulmasından asılıdır. Onu da qeyd etmək lazımdır ki, ailədə düzgün münasibətlərin qurulması ailənin başçıları olan ər və arvadın öhdəsinə düşür, onlar, ilk növbədə, öz aralarında, sonra isə həm uşaqları ilə öz aralarında, həm də uşaqlar arasındakı münasibətlərin düzgün qurulmasını tənzimləməlidirlər. Valideynlər nəzərə almalıdırlar ki, uşaqlar arasındakı sağlam qarşılıqlı münasibətlər öz-özünə yaranmır. O, ailə tərbiyəsinin zəruri nəticəsi kimi meydana çıxır.

Əgər tərəflər bir-birləri ilə “dost”durlarsa, bir-birlərinin qayğısına qalırlarsa, bir-birlərilə maraqlanırlarsa, bir-birlərindən heç nə gizlətmirlərsə, ailənin məsuliyyətini rollara uyğun olaraq bölüşdürürlərsə,

ailənin problemləri ilə maraqlanırlarsa, uşaqların düzgün böyüməsində, tərbiyəsində, təhsilində birgə çalışırlarsa ailədə hökm sürən münasibətlərin sağlam olduğunu demək olar. Lakin tərəflər ailədə öz üzərlərinə düşən məsuliyyəti yerinə yetrimirlərsə, bir-birləri ilə hesablaşmırlarsa, sirrlərini bölüşmürlərsə, istirahətlərini birlikdə təşkil etmirlərsə, ailə üzvləri bir-birlərinə qarşı laqeyddirlərsə, uşaqların problemlərinin həlli zamanı səfərbər olmurlarsa, onda nəinki normal ailədaxili münasibətlərin olduğundan danışmaq olmaz, həm də ailə üzvlərinin yalnız fiziki məkan baxımından birlikdə olduğunu demək olar. Bu isə ailənin yaşaması, uzunömürlü olması üçün kifayət deyildir. Ailənin əsas tərəfi onun üzvlərinin mənəvi həyatının vəhdət təşkil etməsində təzahür edir.

**Ailə probleminin öyrənilməsinə dair yanaşmalar**

Müasir dövrdə ailədaxili problemlər xüsusi aktuallıq kəsb edən məsələdir. Ailə problemləri haqqında bir çox yanaşmalar mövcuddur. Müxtəlif sosial-iqtisadi, sosial-demoqrafik, sosial-psixoloji, pedaqoji və s. amillərlə əlaqədar olaraq ailədə köklü dəyişikliklər baş vermişdir. Ailə nigah münasibətlərində psixoloji amillərin rolu daha da artmışdır.

Ailə xidmətlərinin təşkilinin başlıca məqsədi, birinci növbədə, ailənin möhkəmlənməsinə, uğurlu ailə kimi inkişaf etməsinə kömək etməkdən ibarətdir. Sosial-psixoloji tədqiqatlar əsaslı surətdə göstərir ki, ailədaxili münasibətlərin psixoloji cəhətdən pozulması ailədə müxtəlif çətinliklər və konfliktlərə şərait yaradır.

V.Sisenkonun fikrincə, ailədə ər-arvad arasında hər hansı bir münaqişə maraqların, tələbatların, baxışların və təsəvvürlərin qarşı durmasıdır. Bu müddəadan çıxış edərək o göstərir ki, nigaha daxil olan qadınla kişinin hər biri özlüyündə potensial psixi zərbə amili kimi çıxış edir. İlk baxışda bu qənaətlə razılaşmaq çətindir. Adətən nigaha daxil olmaq qarşılıqlı məhəbbətə əsaslanır. Məhəbbət nədir? Hegelin klassik tərifinə, lap elə gündəlik həyat təcrübəsinə əsasən, Sevmək digər cinsə məhəbbət bəsləmək öz xoşbəxtliyini başqasının səadətində tapmaq deməkdir. A.S. Makarenkonun fikrincə, "İnsan cəmiyyətində cinsi tərbiyə fizioloji tərbiyə ola bilməz". Cinsi əlaqə bütün bəşəri mədəniyyət və nailiyyətlərindən, ictimai insanın həyat şəraitindən, tarixin humanizm yolunda estetikanın tələblərindən təcrid oluna bilməz. Əgər kişi yaxud qadın özünü cəmiyyətin bir üzvi olduğunu dərk etmirsə, əgər onlarda cəmiyyətin həyası, gözəlliyi və zəkası üçün məsuliyyət hissi yoxdursa, onlar necə sevə bilər? Onlarda özlərinə hörmət, özlərinin onları kişi yaxud qadının dəyərlərindən üstün bir dəyərə malik olmalarına inam haradan ola bilər? Bir halda ki, sevən sevdiyi qız (qadın) və ya oğlan (kişi) üçün göydən ulduz qoparmağa da hazırdır, bəs onda bu " psixi zərbə amili" haradan meydana çıxır?!

A.S Makarenko sevgi hissi tərbiyəsinə xüsusi əhəmiyyət verirdi. O, yazırdı: " Cinsi tərbiyə məhz sevgi tərbiyəsi olmalıdır, yəni qadına qarşı böyük və dərin bir hiss, həyatın, ümidlərin və arzuların vəhdəti ilə bəzənmiş bir hissi tərbiyə etməkdən ibarət olmalıdır.

L.M Pankova isə məhəbbəti üç mərhələyə bölür:

1) maraq, cazibə, simpatiya
2) ehtiras, vurğunluq, valehlik
3) səcdə, hörmət, sədaqət.

E. Fromm isə məhəbbət münasibətlərini belə sıralayır:

a) sevgi
b) xarici görünüşə vurğunluq
c) münasibətlərdə əsasən cinsi meyllərlə qurulan cinsi sevgi.

S.V. Kovolyov hesab edirdi ki, işdə tanış olaraq qurulan ailələr sevərək qurulan ailələrdən möhkəm olur. O, belə bir nəticəyə gəlmişdir ki, sevgiyə ümid və hətta sevginin özü ailənin dağılmasına səbəb ola bilər.

Bədii ədəbiyyatın insan əzəməti və ləyaqəti haqqında yaratdığı ən böyük psixoloji himn məhəbbət himnidir. Məhəbbət əsl insan xoşbəxtliyinin meyarıdır. Lakin bununla belə, nikahların hamısının eyni dərəcədə məhəbbət əsasında yarandığını, bütün hallarda məhəbbətin qarşılıqlı xarakter daşıdığını söyləmək olmaz. Müəyyən mülahizə ilə bağlanan nigahlara heç də az təsadüf edilmir. Bir çox ailələr isə sadəcə olaraq təsadüfi tanışlıq əsasında yaranır. Boşanma hallarının artmasının əsas səbəblərindən birini, görünür, məhz burada axtarmaq lazımdır.

A. Reysin "Dairəvi məhəbbət nəzəriyyəsi"ndə dörd əlaqəli, ardıcıl prosesin reallaşması nəticəsində edilən partnyor seçimini izah edir:

1. Qarşılıqlı əlaqələrin qurulması burada insanın sosial-mədəni faktorlardan və insanın digər insanlarla fərdi ünsiyyətə girmək bacarığından asılıdır.

2. Daxili açma və ya qəlbini açma yəni qarşı tərəflə əlaqə nəticəsində yaranan inam və qəlbini açma bacarığı.

3. Qarşılıqlı asılılığın formalaşması yəni insanların bir-birilərinə qarşı tədricən ehtiyac, vərdiş və asılılığı nəzərdə tutulur.

4. Əsas tələbatların reallaşması, yəni məhəbbətə, etibara, inama və müəyyən ambisiyalara olan tələbatların ödənilməsi nəzərdə tutulur.

R.Uinçin "Komplimentar tələbat" nəzəriyyəsində qeyd etmişdir ki, həyat yoldaşı seçimində hər bir fərd öz tələbatlarını maksimum ödəyəcək bir insan axtarır.

R.Sentersin (15,16) "Tərəf müqabili seçiminin instrumental nəzəriyyəsi"ndə ilk öncə təbbatların ödənilməsinə diqqət yönəldərək göstərmişdir ki, insanlar təlabatları oxşar olduqda və ya bir-birilərini tamamladıqda birləşirlər.

İndi "psixi zərbə amili" anlayışına qayıdaq. Söhbət, ailə çərçivəsində insan münasibətlərinin formalaşmasından, iki "Mən"in "Biz"ə çevrilməsindən gedir. Ailə kiçik qrupdur. Qrup isə adətən, paritet olmur, yəni onun üzvləri arasında şəxsiyyətlərarası münasibətlər bərabərlik əsasında rəhbərlik və tabelik elementləri olmadan qurulmur. Bu prosesin özünəməxsus qanunauyğunluqları vardır. Onu hətta ümumi şəkildə təsvir etsək belə, hər halda bir cəhəti qeyd etməliyik. Bu, ailə başçısı məsələsidir. Ailə başçısı, ümumiyyətlə, lider öz-özünə əmələ gəlmir. Başçı (lider) "birinci", "ən güclü" deməkdir və bunun özünəməxsus psixoloji mənası vardır: o birinin başqasına açıq və ya gizli surətdə həlledici (güclü) təsir göstərməsi, onun isə bu təsiri qəbul etməsi, liderin təsirinə tabe olması deməkdir. Ər və ya arvad o zaman yoldaşı tərəfindən qəbul edilir. Bu proses, adətən, müxtəlif konfliktlərlə müşayiət olunur. Bəzi müəlliflər onu nikah adaptasiyası, bəziləri isə hətta obrazlı şəkildə ""ailə hakimiyyəti uğrunda mübarizə kimi xarakterizə edirlər. "Psixi zərbə amili" də , bu zaman özünü göstərir. Ailənin formalaşdığı ilk mərhələdə açıq və gizli münaqişələrin tez - tez təzahür etməsi də bununla bağlıdır.

Ailə canlı təsisatdır. O da dialektika qanunlarına tabedir. Bu mənada məsələ heç də ailədə münaqişələrin olub-olmamasında deyildir. Bu, müəyyən mənada təbii haldır. Ən başlıca məsələ münaqişənin mənəvi məzmunundadır Y. Ryurikov " Xoşbəxtliyin çətinliyi " adlı kitabçasında ailə münaqişələrini təhlil edərkən diqqəti düzgün olaraq "küsmək (dalaşmaq) mədəniyyəti"nin əhəmiyyətinə cəlb edir.

İnsanın psixi funksiyalarının spesifik cəhəti ondan ibarətdir ki, onlar ictimai-tarixi təcrübənin mənimsənilməsi prosesində inkişaf edirlər. A.N. Leontyevin sözləri ilə desək, insan "Əsl insani xassələrə və qabiliyyətlərə" ancaq mədəniyyətin mənimsənilməsi nəticəsində yiyələnir. Cinsi münasibət mədəniyyətinə ümumi mədəniyyətin mühüm tərkib hissələrindən biri kimi yanaşmaq və onu məhz bu kontekstdə izah etmək lazımdır. Cinsi mədəniyyəti təkcə psixo - gigiyena və kosmetika sahələri ilə məhdudlaşdırmaq olmaz. O. geniş anlayışdır. Cinsi mədəniyyət bütün aydınlığı ilə insan münasibətlərdə təzahür edir. Bu, baxımdan hisslər, ünsiyyət, davranış, nitq, iradə mədəniyyəti və s. əhəmiyyətini, bunlarla əlaqədar olaraq kişi və qadına verilən tələbləri, kişi və qadın mədəniyyətinin özünəməxsus çalarlarını xüsusi qeyd etmək lazımdır.

Hər bir ailə təkrar olunmazdır. Ailə xidməti üçün bu fakt prinsipial əhəmiyyətə malikdir: həmin xidmət hər bir konkret ailəyə və onun ayrı-ayrı üzvlərinə fərdi yanaşır, geniş psixoloprofilaktik iş aparır, ailənin dağılmasını, ailə üzvləri arasındakı uyğunsuzluğu, ailə üzvlərində alkoqolizmin, əsəb xəstəliklərinin əmələ gəlməsini şərtləndirən sosial-psixoloji səbəbləri müəyyən edib aradan qaldırır.

Burada bir məsələni də qeyd etmək lazımdır: ailə "dramları" uşaqların tərbiyəsi işinin keyfiyyətinə mənfi təsir göstərir. Məhz buna görə də ailə xidməti həm də ailə tərbiyəsinin səmərəliliyinin artırılmasına, uşaqların ahəngdar inkişafının təmin olunmasına xüsusi diqqət yetirir.

Ailə xidmətinin əsas istiqamətlərindən birini də yeniyetmə və gənclərlə aparılan iş təşkil edir. Bu cəhəti ümumi şəkildə nəzərdən keçirsək, onu yeniyetmə gənclərə uğurlu ailə həyatı üçün zəruri olan psixoloji mədəniyyətin aşılanması kimi xarakterizə edə bilərik. L.Boqdanoviç yazır: "Boşananlarm 60 faizinin nəinki cinsi tərbiyə, həm də əxlaq tərbiyəsi sahəsində nöqsanları vardı".

Sosioloji psixoloji və pedoqoji tədqiqatlar göstərir ki, hər şeydən əvvəl, oğlan və qızların ailə həyatına hazırlanmasını köklü surətdə yaxşılaşdırmaq lazımdır. Əvvəllər bu missiyanı ailə müvəffəqiyyətlə yerinə yetirirdi. Qız, əksər hallarda, demək olar ki, eynilə anasının, oğlan uşağı isə atasının həyat yolunu təkrar edirdi. Ailə ənənələri nəinki möhkəm, həm də çox sadə və yeknəsəq idi. Ana

gələcək ailə həyatı üçün zəruri olan bütün problemlərin sirrini bu və ya digər dərəcədə qızına öyrədə bilirdi. Oğlanın da evdarlıq tərbiyəsində atanın rolu böyük idi.

Müasir dövrdə ailə həyatı normaları davamsız olmuşdur: valideynlər nüfzunu şərtləndirən amillər xeyli dəyişilmişdir, valideynlər uşaqları ailə həyatına hazırlamaq üçün kifayət qədər vaxt və qüvvəyə malik deyildirlər, valideynlərin hətta bir çox yaxşı ənənələri onların övladlarının ailə həyatında qəbul olunmur.

Bu şəraitdə gənclərin ailə həyatına hazırlanmasında ümumtəhsil məktəbləri ilə yanaşı həm də xüsusi sahələrinin, birinci növbədə, ailə xidmətinin rolu artır. Ailə xidmətinin əsas vəzifələri ailə üzvlərinin, hər şeydən əvvəl, uşaqların şəxsiyyətinin inkişafı üçün əlverişli şərait yaradılmasma kömək etməkdən ibarət olsa da, o həm də yeniyetmə və gənclərlə müəyyən iş aparır, tək kişi və qadınlara nikah problemlərinin həllində kömək göstərir və s. mənimsənilir, lakin mənimsənildikcə sevindirici nəticələr verir, ailəyə dinclik və rahatlıq gətirir, onun dünən yad olan üzvləri arasında bu gün mehriban ünsiyyətin yaranmasına səbəb olur.

Bu sirr deyil, lakin qəribədir ki, toydan sonra ilk toqquşma, ilk giley-güzar gəlinlə qayınana arasında baş verir. Özü də bu yalnız bizdə deyil, başqa xalqların ailələrində də təsadüf olunur. Ancaq bunu ürəklə deyə bilərik ki , bizdə azərbaycanlılarda böyüyə hörmət, ehtiram hissi dərin kök salıb. Çox ailələr vardır ki , orda gəlin-qayınana mehriban yaşayır.

Atalar deyib ki, bəxtinə pis kürəkən çıxarsa, qızını itirərsən, pis gəlin çıxsa oğlunu. Bu sözlərdə dərin hikmət vardır. Yazıçı Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı" romanında ata öz övladına məsləhət verir: "....Rəftar adama bağlıdır. Sən istəsən qayınatanın və qayınananın çəmini taparsan. Köhnələrin də rəyi ilə bir az hesablaşmaq lazımdır. Yoxsa ömrünüzü zəhərləyərlər. Hərə bir təbiətə malikdir. Təbiətin yolunu tapmaq lazımdır".

Bu gün də "gəlin - qayınana" münasibətləri gənc ailənin həyatında az rol oynamır. Ərlə arvadın qohumları, o cümlədən, anası və bacısı ər-arvad arasındakı münasibətlərin inkişafına mühüm təsir göstərir.

Təbii ki, ailədə həm gəlinin, həm də qayınananın xarakterindən, onların qarşılıqlı münasibətlərində nə dərəcə diqqətlilik, təmkinlilik və həssaslıq nümayiş etdirməsindən çox şey asılıdır. Bu mənada ailədə münasibətlərin necə qurulması çox şeyi həll edir, ailə həyatına əhəmiyyətli təsir göstərir. Xüsusən də, ənənəvi tipli ailələrdə-gəlinin həyat yoldaşının valideynləri, yəni qayınana və qayınata ilə bir evdə yaşadığı ailələrdə müvafiq problemlər özünü xüsusilə qabarıq şəkildə göstərir. Əksərən belə ailələrdə gəlinlər və qayınanalar arasında narazılıqlar, fikir ayrılıqları tez -tez meydana gəlir. Prinsip etibarilə bu anlaşılan və başa düşüləndir. Belə ki, qayınanalar öz gəlinlərini təsəvvürlərində canlandırdıqları kimi görmək istəyir, gəlinlər isə öz həyat yoldaşı ilə birgə mümkün qədər sərbəst və kənar müdaxilə olmadan ömür sürmək, öz həyatlarını qurmaq istəyirlər. Burada zövqlərin, fikirlərin, ailə tərbiyəsinin, bir ailədə bəyənilən, təqdir edilən davranış formalarının, geyim tərzinin digər ailəyə uyğunsuzluğunun və s. də xüsusi təsiri vardır.

Belə ki, iki gəncin ailəsinin təhsil, bilik, mədəniyyət, davranış stereotiplərində köklü fərqlər olduqda onların, yəni gənc kişinin və qadının birgə ailə həyatında, eləcə də onların ailə üzvlərinin öz qayınana və qayınatalarına münasibətdə müxtəlif fərqlər, ziddiyyətlər və problemlər meydana çıxır. Fərqli vərdişlərə, müxtəlif təbəqəyə, düşüncə və təfəkkürə mənsub olanda ailədə bir çox problemlərlə yanaşı, gəlin-qayınana münasibətlərində də böhrana, qarşıdurmaya səbəb olan başlıca amillərdən biri kimi çıxış edir.

Ailə həyatında əldə edilən vərdişlər və davranış stereotipləri bir çox hallarda insanın genotipinə riayət edərək uşağın öz davranışında, fəaliyyətində yaxın qohumlarını və ilk növbədə valideynlərini təqlid etməsinə səbəb olur. Bu amil ailə həyatında da öz həlledici təsirini göstərir. Məsələn: öz qayınanasının zalımlığından, kobud rəftarından şikayət edən bir qadın və ya ata evində anasının gəlinlərinə qarşı rəftarını müsbət qarşılamayan gənc qadın gələcəkdə çox vaxt öz gəlininə münasibətdə bir çox əlamətlərə görə qayınanasından və anasından heç də geri qalmır. Əksinə ondan gördüyü və mənimsədiyi "qayınanalıq" təcrübəsini öz övladının həyat yoldaşına, kürəkəninə və ya gəlininə qarşı çox böyük ustalıqla və məharətlə tətbiq edir. Çünki birgə ailə münasibətləri çərçivəsində qaynananın sərt rəftarı, ailədə məhz onun sözünün keçərli olması övladların, eləcə də gəlinin onun fikirlərini, dediklərini qeyri-şərtsiz yerinə yetirməyinin vacibliyi bu qadının təsəvvüründə bir etalon, qiymətləndirmə meyarı kimi formalaşmışdır.

Biz qaynanalar və gəlinlər arasında sorğu apardıq. Onlar nədən şikayət edirlər? Sorğu zamanı qaynanalar aşağıdakı məsələlərə daha çox diqqət yetirmişlər:

1.Gəlinin ana olduqdan sonra rəftarından, üzə qayıtmasından, ayağının yer tutub bərkiməsindən şikayət edirlər.

2.Gəlin saymazlıq edir, qayınanaya hörmətlə yanaşmır, qayğı göstərmir.

3.Ailədə "mənəm-mənəmlik" edir: Evdə özünü hökmlü, iddialı aparır, hamının ərin də, qaynananın da, böyüyün də, kiçiyin də onun sözü ilə oturub durmasını istəyir, əri evə gec gələndə hövsələsizlik edir, yersiz hay-küy qaldırır.

4.Özünü evdə qonaq kimi aparır: Qayınanaya biganə münasibət bəsləyir, dərdi-səri ilə maraqlanmır, xəstələnəndə bu otaqdan o otağa keçib kefini soruşmur.

5.Gəlin vaxtlı-vaxtında yataqdan durmur, evi, həyət bacanı-süpürüb, səliqəyə salmır.

6.Moda , daş-qaş , geyim hərisidir. Gəlin həyat yoldaşının qazancını əhliyə-kirşana vurur, gündə bir paltar alır. Ev işlərini kişiyə gördürməyə çalışır. Özünü ağır aparmır, boşboğazlıq edir.

Bəs gəlinlər nədən şikayət edirlər? Onlar qayınanalarında nöqsanları görürlər?

1.Qayınanalar onları öz qızları kimi deyil, məhz "yad" qızı kimi qəbul edirlər, həddindən artıq tələbkarlıq göstərirlər , bəzən bu tələbkarlığın arxasında əslində gəlinə qarşı olan gizli qısqanclıq, kin-küdurət , acıq , nəyinsə əvəzini çıxmaq və s. gizlənir .

2.Qayınanalar yerli-yersiz gənc ailənin işinə qarışırlar, oğlana tez-tez giley-güzar edir, ər - arvad arasında da soyuqluq yaratmağa çalışırlar .

3.Gəlinləri başa düşmək, onun həyatında təcrübəsizliyini nəzərə almaq istəmirlər. Müəyyən məsələnin həllində gəlinləri ilə məsləhətləşmirlər . Onlarla hesablaşmır və hər vəchlə öz iradələrinə tabe etdirməyə çalışırlar.

4.Deyingəndirlər: hər şeyi söz edirlər, səhərdən axşamacan danışmaqdan yorulmurlar. Ümumiyyətlə bunları nəzərə alaraq o gəlininə ilk gündən səmimi davranmalı, öz qızı kimi qəbul etməlidir.

Qayınana nəzərə almalıdır ki, onun özü də gənc olub evləndirdiyi oğlun arvadını da sevməli, ona da qayğı göstərməlidir. Qayınana bu qayğını, bu sevgini qısqanmalı deyil, bəlkə də onun daha da güclənməsinə, saflaşmasına kömək etməklə, qayınana-gəlin tellərinin zəifləməsinə, qırılmasına deyil, daha da möhkəm bağlanmasına çalışmalıdır.

Ailədə münasibət düzgün şəkildə olduqda ailədə müvazinət pozulmaz, hamının ömrü uzanar, hamı dinc və rahat yaşayar. Aqillər yerində deyiblər ki, "ailə dincliyi böyük xoşbəxtlikdir".

Ümumiyyətlə, yeni ailədə qayınana-gəlin münasibətləri bir çox səbələrdən asılıdır. Burada hər şeyi yeni qarşılıqlı münasibətlərdə məsuliyyəti bilavasitə gəlinin və qayınananın üzərinə atmaq doğru deyil.

Ailədə bu iki şəxsin rolu nə qədər əhəmiyyətlidirsə, onların fərdi psixoloji xüsusiyyətləri ailə mühitində özünü nə dərəcədə qabarıq göstərsə də, gənc ailə başçısının öz həyat yoldaşı və anası arasındakı qarşılıqlı münasibətlərdə zəruri harmoniya yaratmaq və qoruyub saxlamaq qabiliyyətindən çox şey asılıdır. Çünki, qadınlar əksər hallarda öz həyat yoldaşlarının davranışını, fikirlərini bir etalon, nümunə kimi qəbul edirlər.

**Nəticə**

Bu sahədə aparılan tədqiqat işlərini nəzərdən keçirtdikdə belə nəticəyə gəlmək olar ki, gənc ailələrdə ailə-nikah münasibətlərinin formalaşması olduqca mürəkkəb və ziddiyyətli prosesdir. Əksər hallarda məhz bu mərhələdə təhrif olunmuş münasibət, düzgün qoyulmamış təməl və s. kimi cəhətlər ailənin möhkəmlənməsində mühüm rol oynayır.

Məlumdur ki, gənc ailələrdə ailə-nikah münasibətlərinin kökü onların nikahından əvvəlki mərhələyə gedib çıxır ki, bu mərhələdə mövcud etalon və stereotiplərin və amillər sisteminin təhlili olduqca vacibdir. Onları təhlil etmədən gənc ailələrdə baş verən konfliktlərin aradan qaldırılmasına, onların düzgün istiqamətləndirilməsinə nail olmaq çətindir. Gənc ailə, adından göründüyü kimi, gənclik illərini əhatə edir. Deməli, nikaha hazırlıq məhz gənclik illərindən başlayır.

Gənclərdə ailə-nikah münasibətlərinin davamlılığı onların ünsiyyət üslubundan çox asılıdır. Ünsiyyət baryerlərinin əmələ gəlməsi münasibətlərdə baş verən anlaşılmazlıqları aradan qaldırmağa imkan vermir. Ər-arvadın qarşılıqlı münasibəti üçün məqbul hesab edilən rəftar təsiri, ünsiyyət ədası eyni qrupda mövcud olan digər şəxslər üçün qəbul edilən deyildir.

Bir-birini tamamlama, bütövləşmə ailədaxili münasibətlərdə harmoniyanı yaratmağa, onun elementlərinin üst-üstə düşməsinə imkan verir. Gənc ailələrdə ailə-nikah münasibətləri virtual münasibətlər və məkan daxilində baş verərsə, bu o deməkdir ki, həmin insanlar bir-birini tanımır, bir-birinin

müxtəlif cəhətlərinə bələd deyillər. Bu isə uzun sürən münasibətlər şəbəkəsi, sabit məhəbbət əsasında yaranmış ailə mühiti yarada bilmir.

Gənc ailələrdə ailə-nikah münasibətlərinin formalaşmasına təsir göstərən amillər içərisində etnomədəni amillər də mühüm yer tutur. Demək olar ki, bu amillər əksər hallarda aparıcı mövqeyə malik olur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Qurbanova L. Ailənin psixoloji problemləri və həlli yolları.Bakı, Bilik:2012. 239 s.
2. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-çap, 2006
3. Əlizadə.Ə, Abbasov.A.N. Ailə. Bakı: Maarif, 1986
4. Quliyev S. Ailə pedaqogikasının mühüm problemləri. Bakı: 2005
5. Qurbanova L. “ Ailə psixoterapiyası” Bakı, XXI əsr mülahizələr və düşüncələr: 2011

**Гюнель Гасан БАГИРОВА**
Западно-Каспийский университет,
политология, психология и социальная работа кафедра, магистр
E-mail: qehremanova_7@mail.ru

## АНАЛИЗ ОТНОШЕНИЙ В МОЛОДЫХ СЕМЬЯХ

### Резюме

Семья создается из союза двух людей, которые любят и уважают друг друга. Один столп семьи держится на плечах мужа, а другой – на плечах жены.

Когда мы говорим о семье как о малой группе, очень важно определить ее место в жизни, обществе, воспитании детей. Большое влияние на формирование и развитие ребенка как личности оказывает семья, в которой он растет.

На первых страницах новой жизни женщины и мужчины бывают разные трудности. Финансовые трудности, трудности в отношениях. Какими должны быть взаимоотношения молодоженов в первые дни семейной жизни? Обратим внимание на слово «взаимность»: для семейной жизни особое значение имеет взаимность отношений. Ведь речь идет о двух людях, их судьбе и, главное, будущих детях.

Представленная статья посвящена семье, факторам, влияющим на семью, молодым семьям, семейным конфликтам, отношениям между мужчинами и женщинами и др. обсуждались темы. Проблемы, затронутые в статье, были проанализированы путем обзора литературы.

**Ключевые слова:** семья, отношения, молодость, проблема, женщина, мужчина, брак, взаимная, ребенок.

**Gunel Hasan BAGHIROVA**
Western Caspian University, Department of Political Science,
Psychology and Social Work Master
Email: qehremanova_7@mail.ru

**ANALYSIS OF RELATIONSHIPS IN YOUNG FAMILIES**

**Summary**

A family is created from the union of two people who love and respect each other. One pillar of the family rests on the shoulders of the husband, and the other on the shoulders of the wife.

When we talk about the family as a small group, it is very important to determine its place in life, society, and education of children. The family in which he grows up has a great influence on the formation and development of a child as a personality.

On the first pages of a new life, women and men face different difficulties. Financial difficulties, relationship difficulties. What should be the relationship of the newlyweds in the first days of family life? Let us pay attention to the word "reciprocity": for family life, the reciprocity of relations is of particular importance. After all, we are talking about two people, their fate and, most importantly, future children.

The presented article is devoted to the family, factors affecting the family, young families, family conflicts, relations between men and women, etc. Topics were discussed. The issues raised in the article were analyzed through a literature review.

**Key words:** family, relationship, youth, problem, woman, man, marriage, mutual, child.

**Daxil olub:** 02.11.2022